MAŞTAĞA ZİYALI QADINLAR MƏCLİSİ

PÜNHAN SƏDA

# ƏLİ AŞİQLƏRİNƏ HƏDİYYƏ

BAKI - 2013

Nəşrə hazırlayan
və
ön söz müəllifi:

**SONA XƏYAL**

Pünhan Səda. Əli aşiqlərinə hədiyyə.
BAKI, "MBM", 2013. 48 səh.

Bu, müəllifin sayca üçüncü kitabıdır. Burada Allaha, peyğəmbərə və imamlara həsr olunmuş şeirlər toplanmışdır. Şeirlərdə müəllifin Allaha və 14 məsuma olan böyük sevgisi obrazlı ifadələrlə öz əksini tapmışdır.

ISBN 978-9952-29-081-9

© P.Səda
Bakı, "MBM", 2013

## “ƏLİ AŞİQLƏRİNƏ HƏDİYYƏ”

Pünhan Sədanı uzun illərdir ki, şair kimi tanıyıram. Eyni bir kəndin sakini olsaq da, onun adını ilk dəfə xalq yazıçısı Əzizə Cəfərzadədən eşitmişəm. Öz adını doğrudan da pünhan edən bu xanım hələ 90-cı illərdə Əzizə xanımın çox sevdiyi, rəğbət bəslədiyi, həm şairliyinə, həm insanlığına hörmət etdiyi, gələcəyinə inandığı bir şair idi.

Pünhan Səda Maştağa Ziyalı Qadınlar Məclisinin təsis yığıncağından bizimlə birlikdədir. O, məclisin katibidir. Məclis üzvlərinin yazılarının redaktə işi onun öhdəsindədir. Məclisə yenicə gələn xanımların hamısına kömək əlini uzadır, onlara yol göstərir. Məclisin nəşri olan “Paklıq” qəzetində, habelə müxtəlif qəzetlərdə çap olunan şeir səhifələrini də nəşrə o hazırlayır.

Pünhan Səda təkcə şair deyil, onun həm də gözəl publisistik yazıları və dəyərli elmi-tənqidi məqalələri vardır. O, Azərbaycan Yazıçılar Birliyinin üzvüdür, iki kitab müəllifidir. Əslində isə onun bəlkə də iyirmi kitablıq şeiri vardır.

Qarşımda olan kitabda onun dini şeirləri toplanmışdır. Mən həmişə görürdüm ki, məclislərdə Pünhandan dini şeirlərini istəyirlər. O da hamıya söz verir, sonra bu şeirləri kompyuterdə yazdırır, vərəqlərə köçürüb onlara verir. Dəfələrlə bunun şahidi olmuşam. Düşündüm ki, bu şeirləri bir kitab halında toplayıb nəşr etdirmək daha gözəl olardı. Pünhan Sədaya dedim ki, bütün dini şeirlərini mənə versin. Beləliklə bu kitab ərsəyə gəldi. Amma mənə elə gəlir ki, Pünhanın dini şeirləri çoxdur. Onun mərsiyələri də var və kənd məclislərində daim oxunur. Sağlıq olsun, növbəti dəfə onun “Mərsiyələr” kitabını nəşr etdirməyi qə-

rara almışıq.

Pünhan kitabını "Əli aşiqlərinə hədiyyə" adlandırıb. Bu, mənim çox xoşuma gəlir. Hələ uşaq vaxtlarımdan içimdə Əli sevgisi olub. Bəlkə də Allahı, peyğəmbəri dərk etmədiyim vaxtda Əlini sevmişəm. Bizim kənd məclislərində onun haqqında danışılan hər sözü yaddaşıma yazar, evə gələn kimi dəftərə qeyd edərdim. Daim Əlini sevənləri sevdim. Bu kitabı da məmnuniyyətlə nəşrə hazırlayıram.

Kitab Allahın və Məhəmməd peyğəmbərin mədhi ilə açılır. Sonra "Fatihə" surəsinin nəzmlə tərcüməsi gəlir. Daha sonra peyğəmbərimizin mövludu münasibətilə yazılmış şeir, qızı Fatimeyi-Zəhranın mövluduna və vəfatına həsr olunmuş şeirlər, imam Hüseynə, imam Rzaya, zamanın sahibinə, Qurban bayramına, Ramazan bayramına, Qədir-Xum vaqiəsinə həsr olunmuş şeirlər yer alır. Müəllif bəzən bir mövzunu ayrı-ayrı çalarda təkrar işləmişdir. Görünür ki, bu şeirlər müxtəlif illərdə əlamətdar günlərdə yazılmışdır. Kitab çox dəyərli kitabdır. Biz Pünhan Sədanın səviyyəsinə, həm də xasiyyətinə bələd olduğumuz üçün bir sözünə belə toxunmadıq.

Arzu edirəm ki, bizim məclisin bütün xanımları bu cür dini şeirlər yazsınlar. Pünhan Sədanı isə təbrik edir, ona daha yeni yaradıcılıq uğurları və yeni kitablarının nəşrini arzulayıram.

Sona Xəyal
AMEA-nın Məhəmməd Füzuli adına
Əlyazmalar İnstitutunun böyük elmi işçisi,
Azərbaycan Yazıçılar Birliyinin
"İRS" komissiyasının sədri

*Əli məndəndir, mən də Əlidən.*
*O, hər bir möminin vəli və başçısıdır.*
*/Mühəmməd Peyğəmbər (s.)/*

## *Rəməzan xatirinə – Əli aşiqlərinə hədiyyə*

Rəməzan ayının fəzilətlərini nəzərə alıb, onu “11 ayın sultanı” adlandıraraq, gəlişinə sevinib bağrımıza basdığımız bir zamanda, qəlbimizin sevinclə dolub-daşdığı bir anda, ağrısı ölçüyə gəlməyəcək qədər böyük və ağır olan imamlar atası, Əmirəl-Möminin Əli Əleyhissalamın şəhadətə yetişdiyi günün də Rəməzan ayının günlərindən birinə təsadüf etməsi bizə sevincli günlərin şirinliyindən qat-qat böyük olan bir acını daddırır. Çünki Əli itkisi elə bir itkidir ki, bunu ancaq Əli aşiqləri dərk edə bilər.

“Əlinidərk” idrakın elə bir mərhələsidir ki, gərək bu mərhələyə çatan hər alim öz elminin, öz biliyinin Əli zirvəsi önündə bir qum dənəciyi qədər kiçik olmasını qəlbinin tam səmimiliyi və bu səmimilikdən yaranan özünün bütün cürət və cəsarətilə etiraf edib təsdiqləmiş olsun.

Əli zirvəsi elə zirvədir ki, o zirvədən islam səmasının günəşi boylanır. Əli zirvəsi elə zirvədir ki, o zirvəni islam səmasının ayı nurlandırır, ulduzları çıraqban edir.

Əli islamın təməlini öz Zülfüqar qılıncı ilə qazıb, ora ilk təməl daşlarını qoyan Peyğəmbərdən sonra ikinci böyük şəxsiyyət olmuşdur. Əli məktəbi bütün məktəblərin ən alisidir. Müəllimi Peyğəmbər, kitabı Quran olan bir şəxsiyyət haqqında söz söyləmək hər

kəsdən, hər bir qələm əhlindən böyük cəsarət tələb edir. Möhtərəm oxucu, yazılarımın zəifliyini duysan, acizliyi qələmdə deyil, o qələmin sahibində gör. Çünki, o qələm Xaqaninin, Nəsiminin, Xətainin, Füzulinin, Seyyid Əzimin, Şəhriyarın, Racinin əlində olarkən Əli böyüklüyünü, Əli qüdrətini, Əli zəkasını, Əli paklığını, Əli müqəddəsliyini, Əli sevgisinin ülviliyini böyük məharətlə vəsf etmişlər. Təkrarolunmaz poeziya nümunələrindən olan Əli şəninə yaratdıqları əsərlər də bu böyük söz ustadlarını Əli aşiqləri, Əhli-beyt aşiqləri kimi tanıtmış, adlarını əbədiləşdirmişdir.

Peyğəmbəri-əkrəmin hədisi-şəriflərindən birində deyilmişdir: "Əli fəzilətindən danışmaq ibadətdir". Kaş bu sətirlərin müəllifi də həmin ibadətdən bəhrələnəydi. Kaş ulu Yaradan hamımıza əlçatmaz Əli zirvəsinə aparan Əli yolunun yolçusu olmaqda kömək olsun!

Rəməzan ayı boyunca tutduğumuz oruclar, qıldığımız namazlar, oxuduğumuz Quran kəlmələri və digər ibadətlərimizlə şeytanı zəncirləmiş oldumuz halda, kaş ulu Yaradan hamımıza içimizdəki, qəlbimizdəki, ruhumuzdakı şeytana qalib gəlib onu zəncirləməkdə yardımçı olsun!

Pərvərdigara, ən böyük düşmənimiz olan nəfsimizə qalib gəlməkdə köməyimizə yet!

Əli xatirinə! Rəməzan xatirinə! Amin, Ya Rəbbəl-Aləmin!

*Müəllif*

# YARADANIN VƏ MÜHƏMMƏD PEYĞƏMBƏRİN (s.) ŞƏNİNƏ

***Bismillahir-rəhmanir-rəhim***

Gecəni sübh elədim ol Xəyalın eşqilə.
Aləmə nur çiləyən Zülcəlalın eşqilə.
Sahibi-hikmət Odur, xamə qalıb mat-məbhut,
Necə söz söyləsin ol pürkəmalın eşqilə?
Qafila, qoy qədəmin sidq ilə Hüda yoluna,
Sürmə ömrü, günü bihudə malın eşqilə!
Qüsli-kamillik ilə camını doldur, ey dil,
Pak ol Cənnət kimi ol bizəvalın eşqilə!
Abi-Kövsər nəsibi-qismət ola, gərçi sənə,
Əməlinə diqqət et, bu ehtimalın eşqilə.
“Behişt xanımlarının payinə qum tək toxunum”
Deyib əl aç Xudaya, ol vüsalın eşqilə.
Nüri-peyğəmbərdir göyləri siyrab eləyib,
Qələmi al ələ ol nurcamalın eşqilə.
“Həbib” demiş ona Xaliq, “Həbibullah” ləqəbi
Mələklər səcdədə ol xətti-xalın eşqilə.
Ona qanadlarında mişk gətirdi Cəbrail,
Səmalar odlanar ol pərü-balin eşqilə.
Xədicə zövcəsi nurdidəsi Xanım Zəhra,
Behişt, vüqarlan ol əhlü-əyalın eşqilə.

Mürtəza, Saqiyi-Kövsər, Ürvətül-Vüsqa,
Əlidir, Şəms yanar ol Hilalın eşqilə.
Ləbin qoyanda ləbi-Müctəbaya Peyğəmbər,
Yandı qəlb ondakı azürdə halın eşqilə.
Boğazın öpdü Hüseynin, ciyəri dağlandı,
Nə söz icad eləyim ol məlalın eşqilə?!
Hər sirrə Həqq Rəsuli vaqif olub Meracda,
Şükür etdi O, seyri-bimisalın eşqilə.
Əl qoyub çiyninə Meracda Xuda ol zatın,
Riqqətə gəldi Rəsul ol macalın eşqilə.
Acizdən aciz imişsən ki, söz icadındı,
Pünhan, imdad dilə gəl, ol cəlalın eşqilə.



# “FATİHƏ” SURƏSİNİN NƏZMDƏ TƏRCÜMƏSİ

***Bismillahir-rəhmanir-rəhim***

Daim dərgahına uzanmış əlim,
Pak ismini zikr eyləyərək dilim.
Mənə hər vaxt ustadım, müəllimim
Öyrətmişdir: “Hüvəl fəttahül əlim”,
Yəni, “Allah həm fatehdir, həm alim”.
Qüdrətilə açılar hər sabahım,
Əfv eyləyər olsa əgər günahım.
Dar ayaqda tək o olar pənahım,
Desəm, “Bismillahir-rəhmanir-rəhim”.
Din əhliyəm, qələm vardır əlimdə,
“Allahu-Əkbər” təkbiri dilimdə.
Dəhrdə pünhan olsa da avazım,
“Bismillah”la ərsəyə gələr yazım.
Ey yazımı zəhmət çəkib oxuyan,
Fərq eyləməz sən ahılsan, ya cavan,
Ağlım kəsib, əlim qələm tutandan,
Arzum olub ömür boyu hər zaman,
Dərk eyləyib “Fatihə” surəsini,
Nəzmə çəkim onun tərcüməsini.
Arzuma yetməkçün vurduqca qəlbim,
Çalışdım ki, artsın biliyim, elmim.

Qalın kitabları çox varaqladım,
Dini vacibatı çox soraqladım.
“Haram”ı, “məkruh”u, “mübah”ı bilib,
Öyrəndim ki, nədir “müstəhəb”, “vacib”.
Qələmi ağ kağız üstə saxladım,
Özümü sınayıb, bir də yoxladım.
Dəruni könüldən “Bismillah” deyib,
Şeytana dəmadəm lənət söyləyib,
“Rəbbim yetirsin kaş məni arzuma”
Deyərək, başladım həmən yazıma.
Hər bir kəsin nemətidir “Fatihə”!
Yaradanın rəhmətidir “Fatihə”!
Öz quluna şəfqətidər “Fatihə”!
Quranı ziqiymət edir “Fatihə”!
Allah, Allah, bu nə sirr, nə möcüzə?!
Nə mübarək bir sureyi-əzizə!
Quranda ilk səhifeyi-şərifə!
Qələm aciz bu mədhə, bu tərifə.
İki dəfə nazil olub Rəsula (s.),
İki şəhər boyanmışdır bu nura.
Şərəf vermiş Məkkəyə, Mədinəyə,
Külli-aləm heyran bu möcüzəyə.
On ismi var – bir-birindən şərəfli,
Bəyan edək onları hər tərəfli;
Möminlərə ilahi bir hədiyyə,
“Səbül-məsani”dir, həm “Əş-şafiyə”,
Odur “Əl-əsas”, “Əl-həmd”, “Əl-kafiyə”,
“Ümmül-Quran”, “Əssalat”, “Əl-vafiyə”,
“Fatihətül-Kitab”, həm “Ümmül-Kitab”,
Vəcdimdən qalmadı canda taqət, tab.

Hər mənanı öz-özündə cəm edir,
Bu, ilahi hikmətlərin cəmidir.
Yaxın olaq bu surənin dərkinə:
Hürufinə, qarəsinə, sətrinə.
Nəzər salıb ilk ayənin şərhinə,
Həmd eyləyək aləmlərin Rəbbinə:
"Əlhəmdülillahi-rəbbil-aləmin".
Bu mənanı düşün dərindən dərin,
Bu, virdidir imanlı könüllərin.
İkinci ayə – "Ər-rəhmanir-rəhim",
Yəni "Allah həm mehriban, həm rəhim".
Zülümdən göylərə ucalsa ahım,
Budur şər önündə güclü silahım.
Ümidim, gümanım, arxam, pənahım,
Hər iki dünyamda sultanım, şahım.
Növbəti ayə – "Maliki yovmiddin",
Bu ayəni doğru-düzgün fəhm edin.
Agah olun, yəni yəqindən yəqin,
"Sahibidir O, qiyamət gününün".
Qadir Allah, sənədir ibadətim,
Əlindədir mənim ömür müddətim.
Dilimdədir kəlmeyi-şəhadətim,
İmanıma sonsuzdur sədaqətim.
Sənə edibən əbədi səcdəni,
Nəzm edirəm mən daha bir ayəni:
"İyyakə nəbudu və iyyakə nəstəin".
Bu darül-fənada olsam da əqim,
Qəlbim imanımla olmuşdur zəngin.
Söylərəm nə qədər vardırsa nitqim,
Yarəb, "Ihdinəssiratəl-müstəqim".

“Bizi doğru yola, gəl, et hidayət,
Göstər ki, hardadır səmt-istiqamət”.
Titrəyir ürəyim yarpaq tək tel-tel,
Yağaydı ömrümə lütfündən bir sel.
Açaraq sidq ilə dərgahına əl,
Ya Rəbbim, dilərəm daim “Siratəl-
Ləzinə ən-əmtə ələyhim ğeyril-
Məğzubi ələyhim vəl-əz-zallin”.
“Yarəb, o kəslər ki, azğınlaşıblar,
Nəfslə, tamahla harınlaşıblar,
Onların yolunu üzümə bağla!
Məni qəzəbindən amanda saxla!”
Kaş həqq çırağının qorçusu olum,
Kaş ki, həqq yolunun yolçusu olum.
Bu yol azğınlıqdan cüda olan yol,
Nemət verdiklərinə hüda olan yol.
Daim səfərbər et bizi bu yola,
Sapmayaq bu yoldan nə sağ, nə sola.
Sənin şəfqətindir ümmid, təsəllim,
Bizi həqq işinə et mütəəllim.
Adilsən Allahım, deyilsən zalim,
Səndən rəhmət dilər hər mütəkəllim.
İman-təkəmmül bəxş eylə bizə,
Lütfün fərəc versin axirətimizə.
Miskin Pünhanı da sən salıb yada,
Nola, amanda ol ona Üqbada.
Bu darül-fənada görmədi vəfa,
Sən ona həşr anı, gəl, eylə şəfa.

## BAX

*Ən böyük ehtiyacsızlıq qəlbdə*
*arzulara  yol verməməkdir.*
*/Həzrət Əli (ə.)/*

Könül, hikmət bağının dürri-gühər kanına bax.
Ürəfalar tək onun türfeyi-kankanına bax.
Guş qıl, öyrən həyat hikmətini nasehdən,
Sən onun "Idrak", "Ağıl" isimli dərbanına bax.
Ömr edib, çün, yaşadın sanma həyat daimidir,
Qafila, ömrün əcəl naməli mehmanına bax.
Yaşanan ömrü yazıb Tanrı alın lövhəsinə,
Taleyin həqdən olan əmrilə fərmanına bax.
Uyma fani cahanda güli-novbaharlara çox,
Solub xəzanə dönən səhni-gülüstanına bax.
Bəzənən şanlı saraylarla, bu puç dünyanın
Bircə göz qırpımında lərzəvü-yeksanına bax.
Fani tən, fani həyat, fani cahan, fani ömür -
Fanidən fani olan dövr ilə dövranına bax.
Tapılar mülkü-cahanda yaşaran çeşmi silən,
Həşr anı selə dönən çeşmeyi-giryanına bax.
Gəl vəfa umma, varü sərvətindən dünyanın,
Səmum ilə saralıb zərd olan əlvanına bax.
Bir tərəfdən boşalan mülkü-qəm ol dəmdə dolur,

Sən Xudanın belə bir salimi-səhmanına bax.
Soldurub çoxlu gülər çöhrələri bir nəfəsə,
Düzülən rahə rəvan qafilə karvanına bax.
Xakidən yoğruluban sonra nəfəs, can aldın,
Xak olub döndüyün son mənzili-ünvanına bax.
Xeyli diqqətlə nəzər eylə məzarıstana,
Həp bərabər uyuyan xanına, dehqanına bax.
Sanma haqqı nahaqqa bari-xuda təslim edər,
Sən Onun ədlini an həşrdə divanına bax.
Alsa da dövrü-zamanında küfr dünyanı,
Tanrının küfri silən Nuh Nəbi tufanına bax.
Yusifi kanə salan fitnə-fəsad sahibinin
Möcüzi-həqqə olan heyrəti-heyranına bax.
Təhqirə, zülmə dözən Xatəmül-ənbiyanın
“La Ilahə Illəllah!” naləvü-əfqanına bax.
Sınmadı küfrün önündə o vaxt Rəsuli-Xuda,
Həqqin hüdası olan Müshəfü-Quranına bax.
İyirmi beş sənə dözmüşdü Əli zülmü-şərə,
Rəsuli-Həqqə vəfa qıldığı peymanına bax.
Din yolunda cihadı anlamaq istərsən əgər,
Qan ilə əlvan olan Kərbəla meydanına bax.
Axtarırsansa şəhid zirvəsinin fəttahın,
İmam Hüseyn ağatək şahi-şəhidanına bax.
Gər dilərsənsə behişt rahiyəsin üqbadə,
Qüsli-kamillik ilə pak olan imanına bax.
Güdmə öz xeyrini gəl, fani olan aləmdə,
Sən bəqa aləminin xeyrinə-ziyanına bax.
Həşr anı yük-barın qoyub əməl tərəzisinə,
Xaliqi-ədlin dürüst məhşəri-mizanına bax.

Gəl, həzər eyləmə dəhr içrə fəqir bir kəsdən,
Həqqi-baqidə onun şöhrət ilə şanına bax.
Ənisi-qəlb seçərkən özünə hər vədə
Sən onun əcdadına, namına-nişanına bax.
Bir əmanətdi sənə xaliqi-sübhandan can,
Əldə imkan var ikən cəhd elə öz canına bax.
Vermə israf yelinə, heyf bil öz malını sən,
Qənaət eyləyərək malına, imkanına bax.
Olma, gəl, borc quyusun sakini heç bir vədə,
İlahi borcun anıb, öz ədəb-ərkanına bax.
Ömür vəfasız olan canana bənzər, bunu bil,
Neçə var sahibinin qəfləti-böhranına bax.
Təmamə yetdi sözüm, gər mənim nəsihətimə
Əməl etmək diləsən, vaxtına, zamanına bax.
Pünhanın aç da vərəqlə sən əməl dəftərini,
Dini-imanı kimi can təki cananına bax.



## PEYĞƏMBƏR (s.)-ın MÖVLUDUNA

Kainatdan əvvəl nuru yarandı,
Mövluduyla aləm nura boyandı.
Asimanda ulduz yağışı yağdı,
La Ilahə Illəllah, Mühəmmədən Rəsulallah!

Savə dəryaçəsi tamam qurudu,
Kahinlər, sahirlər payimal oldu.
Dünya padşahları tamam lal oldu,
La Ilahə Illəllah, Mühəmmədən Rəsulallah!

Kəsra tağı lərzə gəlib söküldü,
Atəşgahi-farsın alovu söndü.
Dünyanın bütləri üzüstə çöndü,
La Ilahə Illəllah, Mühəmmədən Rəsulallah!

Ona tapşırıldı “Lövh” ilə “Qələm”,
Ona səcdə qıldı, mələküt-aləm.
Xatəmül-ənbiya Rəsuli-Əkrəm,
La Ilahə Illəllah, Mühəmmədən Rəsulallah!

Zühur edən zaman ruzi-qiyamət,
Əlində olacaqdır livayi-həmd.
Kürəyində vardı möhrü-nübuvvət,
La Ilahə Illəllah, Mühəmmədən Rəsulallah!

Ona “Həbib” dedi böyük Yaradan,
“Lə əmrükə” demiş and içən zaman.
Onun möcüzəsi müqəddəs Quran.
La Ilahə Illəllah, Mühəmmədən Rəsulallah!

Kəlmeyi-avazi sədayi-pünhan,
Şikəstə qəlbimdə eylərkən cövlan.
Köçürüb lövh üzrə eylədim bəyan,
La İlahə İlləllah, Mühəmmədən Rəsulallah!



## HƏZRƏT ƏLİ (ə.s.)-IN ŞƏNİNƏ

Həmd səna olsun Sənə, ey Heydəri-Düldülsüvar!
Eylədin həqq göndərən islami-dini iqtidar.
Mustəfa olmuş Rəsul, Mövlam Əliyyül-tacidar,
Ya Əmir-əl-Möminin, zikr eylərəm mən biqərar:
“La fəta illa Əli, la seyfi illa Zülfüqar!”

Bağı-islamə onun hər bəhrəsi olmuş nübar,
Nabina, kor gözlərə hər kəlməsi olmuş timar.
Elmi külli-aləmə bir rəhnüma, bir üstüvar,
Ya Əmir-əl-Möminin, zikr eylərəm mən biqərar:
“La fəta illa Əli, la seyfi illa Zülfüqar!”

Ol Həsəni-Müctəba, həm ol Hüseyn gülpirəhən,
Vəcdətindən nurla dolmuş qüssəvü-beytül həzən.
Canı qurban eylərəm eşqilə Əhlü-Beytə mən,
Ya Əmir-əl-Möminin, zikr eylərəm mən biqərar:
“La fəta illa Əli, la seyfi illa Zülfüqar!”

Onda kim, qoydun qədəm girdin Peyəmbər bağına,
Sahib oldun ol bağın bir əfsəri-zanbağına.
Gərdiniz sinə bu dünyanın qaravü-ağına,
Ya Əmir-əl-Möminin, zikr eylərəm mən biqərar:
“La fəta illa Əli, la seyfi illa Zülfüqar!”

Böylə təşrih eylədi Peyğəmbər ol zati-vəli:
“Mən kimin mövlasıyam, ol kimsəyə mövla Əli.”
Dəhridə müşkül olan hər dərdlərə çara Əli,
Ya Əmir-əl-Möminin, zikr eylərəm mən biqərar:
“La fəta illa Əli, la seyfi illa Zülfüqar!”

Əksinə tutdu qərar neyrəng Cəməl vaqiəsi,
Xak ilə yeksan olubdur, ol müxalif firqəsi.
İslamın eşqilə çün fəth oldu Xeybər qəl’əsi,
Ya Əmir-əl-Möminin, zikr eylərəm mən biqərar:
“La fəta illa Əli, la seyfi illa Zülfüqar!”

Dini-islam eşqinə çox düşməni etsən də məhv,
Son məkan olmuş sənə Darüssəlam, Şahü-Nəcəf.
İnşaallah ki, edərsən Pünhanı əşridə əfv,
Gər səhər-şam zikr edərsə cani-dildən biqərar:
“La fəta illa Əli, la seyfi illa Zülfüqar!”

## HƏZRƏT ƏLİ (ə.s.)-IN ŞƏNİNƏ

Hər döyüş, hər vuruşu bir qələbə, şanlı zəfər,
Cəngavər, əhli-hünər, hər sözü bir kani-gühər.
“Elmdə şəhr mən, ol şəhrə Əli babi-şəhər”,-
Belə hökm eylədi Rəsuli-xuda-peyğəmbər.

Almağa canın, ədu, Düldülün süvari gəlir,
Tökməyə qanını sənin əldə Zülfüqarı gəlir.

İslamın şiri gəlir, Heydəri-Kərrarı gəlir,
İman əqidəyə sadiq rəşidi-gülpeykər.

İlk sözü “qül caəl həqqi və zəhəqəl-batil”,
Rəsuldan sonra o islama olubdur daxil.
“Həl-əta” şəninə göylərdən olubdur nazil,
“Ya Əli” zikr elə, Pünhan, var əgər canda təpər.



## FATİMEYİ-ZƏHRA (s.ə.)-IN MÖVLUDUNA

*Qızım Fatimə dünya*
*xanımlarının xanımıdır.*
*/Mühəmməd Peyğəmbər (s.)/*

Səmaların Mənsurəsi,
Bu dünyanın Huriyyəsi,
Allahın pak Mərziyyəsi
Nə zinətdir, anam Zəhra!

“Dürrətül-Beyza, Tahirəm,
Bəz’əti nurdu tənimdən” –
Bu söz Rəsuli-Əkrəmdən
Vəsiyyətdir, anam Zəhra!

Əmin oğlu Əli yarın,
Tacidarın, vəfadarın!
Başdan-başa o sərdarın
Şücaətdir, anam Zəhra!

Zeynəb, Gülsüm, Hüseyn, Həsən
Namü-nişandı şənindən.
Əhli-Beyt Mühəmməddən
Əmanətdir, anam Zəhra!

Tükənməz şanı, şövkəti,
Şərəfyab etdi himməti.
Məqamının ziyarəti
Fəxarətdir, anam Zəhra!

Fərağınla olub giryan,
Fəğan eylər Səda Pünhan.
Kənizin olmaq şöhrət, şan,
Şərafətdir, anam Zəhra!

## FATİMEYİ-ZƏHRA XANIM HƏZRƏTLƏRİNİN VƏFATINA

*Fatimə bədənimin bir parçasıdır; kim onu sevindirsə, məni sevindirib, kim onu incitsə, məni incidib. Fatimə mənə hamıdan əzizdir.*
*/Mühəmməd Peyğəmbər (s.)/*

Nə halindir, anam Zəhra, gözün giryanə, giryanə.
Küləklər naləvü-ahin yayar hər yanə, hər yanə.

Həsən ağlar, Hüseyn ağlar, səmalər qarələr bağlar,
Balan Zeynəb açar başın, gələr əfğanə, əfğanə.

Yanar qapın görənlər didələrdən qan çilər əl'an,
Həya etməz ləin zalim, durar şahanə, şahanə.

Rəsuli-həqqin övladı rəvamı zülmə xar olsun?
Sığışmaz bu əməl heç bir ədəb-ərkanə, ərkanə.

Cahana gəlməmiş Mühsin bətində qanına qəltan,
Nə cür qıydın, aman zalım, güli-reyhanə, reyhanə.

Əmin oğlu Əli naçar baxar solğun bənizinə,
Nə söylər həqqin uğrunda gedən qurbanə, qurbanə.

Qələm lövh üzrə çeşmi-xun səpib bir şer icad etdi,
Görən layiqmi ol icad dili-büryanə, büryanə.

Səda layiq deyil olsun, Xanım, tay xaki-payinə,
Həşrdə rəhm elə, nola, kəniz Pünhanə, Pünhanə.

## ZƏHRANI TANI

*Dünya qadınlarının ən yaxşısı dörd nəfərdir:*
*Məryəm İmran qızı, Fironun arvadı Asiyə,*
*Xədicə Xüveylid qızı, və Peyğəmbəri Əkrəmin*
*qızı Fatimə. Bunların isə ən yaxşısı Fatimədir.*
*Mühəmməd Peyğəmbər (s.ə.s)*

Könül qubar eləsə, cəhd elə Zəhranı tanı!
Usanma, bezmə, ciddi-cəhdilə Zəhranı tanı!
Gözlərin qarəsini ver bada, kitablar oxu,
Gözlərin yaşını döndər selə, Zəhranı tanı!

Əhli-Beyt tarixindən harda xəbərdar görsən,
Soruş, öyrən, sən onu tut dilə, Zəhranı tanı!
Kifayət etməz əgər ömür, – həyat çox qısadır,
Nəfəsin dursa da, ölsən belə, Zəhranı tanı!
Sən özün təşnə, Əhli-Beyt quyusu dəryadır,
Ovucun aç, udum et bir gilə, Zəhranı tanı!
Onun ziyasına qərq olmuş Ali-Peyğəmbər,
Nura əfşan, imami-silsilə Zəhranı tanı!
Fatiməyçün Əlini xəlq eləmişdir Yaradan,
İmamət olmuş həmin mehrilə Zəhranı tanı!
Açıb hikmət qapısın, bərk qapa sərvət qapısın,
Həqiqət aşiqi ol, düş çölə, Zəhranı tanı!
Səni cəzb etməsin ol gəldi-gedər sərmayə,
Sərvətə olma əsir, qul, kölə, Zəhranı tanı!
Bir ovuc xakə dönər cism özü, güvənmə ona!
Davam etməz o qədər toz Yelə, Zəhranı tanı!
İndi fürsət var ikən, al əlinə elmü-kitab,
Qıyma ol bir tikə fürsət ölə, Zəhranı tanı!
Hər kəsin hər üzünü görmüsən artıq, Pünhan,
Nə qədər var nəfəsin, zikr elə, Zəhranı tanı!

***

Arizuyi-eşq kim, xaki-dəri-Zəhra mənəm!
Əşkbari-çeşmilə bir sakini-səhra mənəm!
Ötmə, bülbül, baği-gülzar içrə sən, sus bir, dayan!
Bakir eşq ilə yanan bir bülbüli-şeyda mənəm!
Bu fəna mülkündə mən biçarəvü-əhli-qəməm,
Əhli-Beyt eşqiylə tüğyan eyləyən dərya mənəm!

Qəlb Hüseyn eşqiylə çırpınmaqdadır şamü-səhər,
Əhli-din, siddiqi-qəlb, aludeyi-təqva mənəm!
Ta əsrlərdən bəri nalan Hüseyn aşiqləri,
Əşk ilə sərtaqədəm qövr eyləyən məcra mənəm!
Çün cahan dinara dəyməzmiş, nəhayət, dərk edib,
Dərki isbat eyləyən bir talibi-dana mənəm!
Ruhumu sarmış vəhm, var vəhşəti-ruzi-cəza,
Xüşx tək dəryada gah qərq, gahigah peyda mənəm!
Tizi-xəncərdən iti, tükdən zərif puli-sirat,
Rəhm et, Allahım, bu dünyadan köçən zira mənəm!
Üzmə, Pünhan, ruhunu ol ruh qonaqdır cisminə,
Möhrbənd vurmaq dilərsən, bil ki, son misra mənəm!



## HÜSEYNƏ GÖRƏ

*Həsən və Hüseyn cənnət*
*cavanlarının seyyididir.*
*Rəsuli-Əkrəm (s.ə.s.)*

Ey edən Kərbəlayə hər səfər Hüseynə görə,
Alacaqsan behiştdə müжdələr Hüseynə görə!
Nəsib edib sənə Həqq Kərbəla ziyarətini,
Görüm olsun səfərin bixətər Hüseynə görə.
Düşüb şəhid ağamın məscidin dolan, necə ki,
Gəzər qədəmbəqədəm şiələr Hüseynə görə.
Mən Hüseyn aşiqi olsam da, qələmdir silahım,
Amma aciz qələm yazar nələr Hüseynə görə.
Qələmin qətrə-qətrə göz yaşı "Hüseyn" yazar,
Çeşmi nisar eliyər incilər Hüseynə görə.
Yenə aldım qələmi şəninə söz yazmağa mən,
Olarmı layiq həmin kəlmələr Hüseynə görə.
Behişt cavanlarının seçkini Həsənlə Hüseyn,
Behiştdə nura dönər guşələr Hüseynə görə.
Abi-Kövsər quyusun saqisi Əlidir, Əli!
Var olar lakin həmin çeşmələr Hüseynə görə.
Sən Hüseyn halına yanmazsan əgər, ey şiə,
Neylər, ağlın nə kəsir, qeyrilər Hüseynə görə.
Könül anarsa bir an, gər Hüseyn müsibətini,
Göz yaşilə yuyunar çöhrələr Hüseynə görə.
Pünhan, xəyal elədin Kərbəla ziyarətini,
Xəyal həqiqətə bir gün dönər Hüseynə görə!

## RƏMƏZAN XATİRİNƏ

*Kim Rəməzan ayını yaşasa və bağışlanmasa,*
*Allah-Təala onu rəhmətindən uzaqlaşdırar.*
*/Mühəmməd Peyğəmbər (s.)*

Ravi, şərh et, bu nə hikmət, Rəməzan xatirinə.
Yağar evlərimizə bərəkət, Rəməzan xatirinə.
Oldu naz-nemət ilə qərq Rəməzan süfrələri,
Bürümüş qəlbimi heyrət Rəməzan xatirinə.
Bilən bilir bu mübarək ayın fəzilətini,
Bilməyənçün elə söhbət, Rəməzan xatirinə.
Bu ay bərabərdir min ayın ibadətinə,
Sən səvabdan səvaba yet, Rəməzan xatirinə.
Qoyma Allahın evi boş qala, Aman günüdür!
Sidq ilə eylə ziyarət, Rəməzan xatirinə.
Oxunan hər ayə bu ay bir Quranə dəyər,
Aç Quran, eylə tilavət Rəməzan xatirinə.
Bir ətadır bizə, bil, Tanrıdan Əhya gecəsi
Verilər hər dilək, əlbət, Rəməzan xatirinə.
Yatma, Əhya gecəsi aç əlini göylərə sən,
Sübhədək eylə ibadət Rəməzan xatirinə.
Necə zəncirlidir şeytan biləsən, ey nadan,
Gəl, ona etmə itaət Rəməzan xatirinə.
Səvab etmirsən əgər, suçdan uzaq ol barı

İstiğfar eylə və şükr et Rəməzan xatirinə.
Axirət gününü düşün, sən hərama meyl etmə,
Olma aludeyi-sərvət Rəməzan xatirinə.
Aç bir əhkamı oxu, gör, nə deyir din, şəriət,
Dərk et, et öylə də hərəkət Rəməzan xatirinə.
Gözü kor et, qulağı kar, dili lal, nəfsini tox,
Günahdır eyləmə qeybət Rəməzan xatirinə.
Xeyli ehsan verərək evdə minillik ölüyə,
Etmə, gəl, qonşuna nifrət Rəməzan xatirinə.
Qonşu haqqı sorular, qafil, axirətdə, inan,
Qazanarsanmı bəraət Rəməzan xatirinə?
Yuxarıdan aşağı baxma sən öz qardaşına,
Elə insanlığa hörmət Rəməzan xatirinə.
Ən uca mərtəbəyə çatsa da mənsəb, qoyma
Gözünü kor edə şöhrət Rəməzan xatirinə.
Pünhan, hər bəndə özüyçün edir ibadətini,
Qoyma heç kimsəyə minnət Rəməzan xatirinə.

***

Rəbbin kömək olsun sənə, ey əhli-müsəlman!
Səyinlə günahdan, necə gör tazələnir can.
Mahi-Rəməzan adlı günəş doğdu ömrünə,
Kaş olsun iraq qəlb evi suç adlı dumandan,
Dur qıl namazı, tut orucu, sən savab eylə,
Dəryayi-nurdu çağlamada mahi-Rəməzan.
Bəh-bəh! Nə gözəl aydı, dilən əfvi-qələmçün,
Aç əllərini göylərə rəhm istə Xudadan:
-Biçarəyəm,- de,-ey bu günün sahibi Allah,
Gəl eylə əta sən mənə əfv adlı dəvadan".

Ey bəndə, qarnın olsa da ac, nəfsini tox tut,
Sidq ilə istə axır-aqibət Yaradandan.
Öndə canamaz, dildə zikr, dəstdə təsbeh,
Avazi-qiraətlə oxu, şövq ilə Qur'an.
Quranı nazil eyləmiş nicatın üçün, həm
Göstərmiş hidayət yolunu Xaliqi-Sübhan.
Zikr et Fərəc duasını sidq ilə sübhi-şam,
Rüsxət dilər zühuru üçün Sahib-əz-Zəman.
Hazırla əməl boxçanı, karvan yol üstdədir,
Vaxt gözləyən qonaqdı bu dəhr içrə hər insan.
Kamil qüsllü saleh əməl sahibi ol sən,
Həqq aləmi gözlər bizi, əl çək bu cahandan.
Pünhan, gəl, az nəsihət elə, səslənir azan,
Dur qıl namazı, yetdi sona vəqti-obaşdan.

## GƏLDİ RƏMƏZAN

*Xeyir işlər görməyə nail olmaq xoşbəxtlikdir.*
*/Həzrət Əli (ə.)/*

Gəldi Rəməzan, qəlbdə bahardır, yenə yazdır
Gəl, et səvab, ey bəndə, əməl lövhünə yazdır.
Yerdən ucalar göylərə həşmətlə minacat,
Yahu, bu nə cür təntənə, gör bir nə avazdır?!
Təqvaya qatıl, dəstəmaz al, aç canamaz, gəl,
Döndər üzünü qibləyə sən vəqti-namazdır.
Zikr eylə ayə-ayə tilavət ilə Quran
Hər pis əməlin qəbrini qazdır, yenə qazdır.

Yum ağzını, yum gözünü, yum qəlbini şərə.
Şeytana gedən yollara, gəl, nəfsini azdır.
Vəsf etdi qələm, bax, bu cəh-cəlalı görüncə
Söylər: -“Necə vəsf eyləsəm, azdır, yenə azdır!”
Mahi-Rəməzan bircə aydır, qədrini bil sən,
Pünhan, bu ayda tək işin, əlbəttə, niyazdır.

## RƏMƏZAN

*And olsun Allaha, dilini qorumayınca,*
*təqvasının xeyir verdiyi bir bəndə tanımıram.*
*/Həzrət Əli (ə.)/*

Sənsən on bir aya sultan,
Necə məsumsan, Rəməzan.
Sən bərəkət ümmanısan,
Dərya ruzumsan, Rəməzan.

Ayrılır günahdan canım,
Paklanır damarda qanım.
Kamilləşə kaş, imanım,
İstək, arzumsan, Rəməzan.

Qürurtək dolub qəlbimə,
Nur çiləyirsən ömrümə.
Həşrdə əməl dəftərimə
Qismət yazımsan, Rəməzan.

Bir neyəm pünhan nəfəsli,
Qəlbim din-iman həvəsli,
Quran ünlü, azan səsli,
Xoş avazımsan, Rəməzan.

## RƏMƏZANDA

*Rəməzanın ilk gecəsi səmanın qapıları*
*açılar və son gecəsinədək bağlanmaz*
*/Mühəmməd Peyğəmbər (s.)/*

Gəl tut orucu, sən namazın qıl Rəməzanda.
Hər xeyr əməlin bul, savabın bul Rəməzanda.
Mahi- Rəməzan – nura bələnmiş tamam aləm
Nur içmədə bağ-bağça, ağac-kol Rəməzanda.
Ol nura təmənnadadır Ay, Gün, Yer, Asiman,
Cəhd eylə həmin nur ilə yoğrul Rəməzanda.
Allaha məhəbbətini izhar eləməkdə,
Gəl eylə ibadət, belə doğrul Rəməzanda.
“Kamil” isimli qüslü verib ruh ilə qəlbə,
Cəhd eylə günahlardan uzaq ol, Rəməzanda.
Sən həqq işə ver əqlini, vicdanını dinlə,
Zikri, duanı, gəl, elə bol-bol Rəməzanda.
Hər bir günahdan azad olunca, təsəvvür et,
Sanki sitəmdən azad olur qul Rəməzanda.
Əhli-qüburu eylə ziyarət və sevindir
“Yasin”, Quranla onları bol-bol Rəməzanda.
Qəlbin qapısı şeytana bərk-bərk kilidlənər,

Kamil iman, ilahi nura dol Rəməzanda.
Bir ay orucu tutsa, gər, hər zəngin olan kəs
Anlar nə çəkir il boyu yoxsul, Rəməzanda.
Dünya zəmisi münbit olar, axirət günü
Hər kəs biçəcək əksə nə məhsul Rəməzanda.
Dünya malına göz yumub ol nəfsinə sahib,
At hər suçu, yox eybi, saral, sol Rəməzanda.
Açmış sənə öz qolların həsrətlə gözləyir,
Pünhan, o Hidayət deyilən yol Rəməzanda.



## QURBAN BAYRAMI

*Ən üstün ibadət*
*günahlardan çəkinməkdir.*
*/Həzrət Əli (ə.)/*

Şan-şövkətli bayramların içində
Görün necə səfası var, Qurbanın.
Bayram varmı bu qayət, bu biçimdə
Özəl bir macərası var, Qurbanın.

Sevinc artar, kədər, ələm kiçilər,
Hər bir evə bayram donu biçilər.
Sürülərdən qoç-erkəklər seçilər,
Göz oxşayan libası var, Qurbanın.

Hənalar yaxılar bayram axşamı,
Bayram süfrəsinə düzülər hamı.
Şadlıq sədaları tutar hər yanı,
Gözəl zəri-zibası var, Qurbanın.

Bayram qoçu böyük səylə bəzənər,
Qız evində intizarla gözlənər.
Göydən yerə ruzi yağar, nur enər,
Dürlü-dürlü mənası var, Qurbanın.

Həcc ayinin icra edən hacılar,
Bu gözəl məqama olar intizar.
Həmin gün murada yetər hər zəvvar,
“Səvab” adlı dəryası var, Qurbanın.

Hər kəsi dindirən bir pünhan səda,
Kədərə, qüssəyə deyər əlvida.
Getsin yer üzündən bütün qan-qəda,
Bu cür arzu-sevdası var, Qurbanın.

## İSMAYIL QURBANI

*Qəlbi Allaha müti*
*olan şəxsin cismi*
*Allaha itaətdən yorulmaz.*
*/Həzrət Əli (ə.)/*

Çox qədimdən mərami-qeydi eyd-əl-əhzanın.
Tanrısı qarşısında borcudur hər insanın.
Dövrü-Xəlilə qədər borcu icra etmək üçün,
Övladın qurban edib xalq ödərmiş ehsanı.
Əhdə sadiq, vəfalı, həqq rəsulu İbrahim
Qovdu qəlbindən o gün vəsvəseyi-şeytanı.
Götürüb oğlunu o, üz tutub qurbangaha,
Anıb Allahı qarşısında əhdü-peymanı.
Qəlbində Tanrı sevgisi, başında fikri-xəyal.

Gəlib yetişdi Kəbəyə dolanıb səhranı.
Keçirməliydi həyata ata öz söylədiyin
Tökülməliydi bu gün İsmayılın al qanı.
“Xəlil deyir ki, kəs, amma Cəlil deyir, kəsmə”
Deyərək ləngidir bıçaq əməli-insanı.
Ulu pərvərdigar hər müşkülü asan eləyir.
Ən ali divandır, dəhrdə həqq divanı.
Cəbrail Tanrının əmrilə bir qoç nazil edib,
Qurtarır cəbri-kəsərdən bu günahsız canı.
Şərəfi-şəninə layiq olaraq İsmayılın,
Həmin ehsana deyilmiş “Ismayıl qurbanı”.
O mübarək gündən Məkkə–ol müqəddəs yer
Cəm edir dövrəsinə ildə çox müsəlmanı.
Canı qurban diləmiş Əhli-Beytə sidq ilə,
Tanrı kaş hifz eləyə həşr günü Pünhanı.



## QƏDİR-XUM VAQİƏSİ

*Güzəşt alicənab insanı islah etdiyi kimi,*
*alçaq insanı da bir o qədər korlayar.*
*/Həzrət Əli (ə.)/*

İnsanla qaynayır Qədir-Xum çölü,
Xəbərə müntəzir bütün Həcc əhli.
Peyğəmbər keçirir qeyri-adi hal–
Bu gün nazil olmuş ayeyi-ikmal.
Baxıb yüz minlərlə xalqa, insana,
Üzünü tutaraq hər müsəliana
Rəsul bəyan etdi: “Bir gün olmasam,
Bir itrətim, bir də müqəddəs Quran
Məndən ümmətimə əmanət olsun!
Qəlbiniz onlərə şəfqətlə dolsun!
Ayrılmayıb biri-birindən onlar,
Axirət günündə mənə qovuşar!”
Yanına çağırıb cənab Əlini,
Qaldırıb yuxarı onun əlini.
Kütləyə ani bir nəzər eylədi,
Onlara xitabən belə söylədi:
“Hər kim öz mövlası bilirsə məni,
Bundan sonra mövla bilsin Əlini!
Əli canişinim, mənim vəsimdir,

Ona beyətiniz mənim bəsimdir"!
Sonra da əlini qaldırıb göyə,
Belə xitab etdi ulu Tanrıya:
"Ey uca Allahım, pərvərdigarım,
Sənin istəyindir mənim qərarım.
Hər kəs Əli ilə dostluq eyləsə,
Onu öz qəlbinin munisi bilsə,
Hər iki dünyada onunla dost ol!
Yağdır taleyinə lütfünü bol-bol!
Hər kəs ki, düşməni bildi Əlini,
Hər iki dünyadan sən kəs əlini"!
Xütbə yetişincə burda tamama,
Şərəf bəxş eylədi böyük islama.
Xəlq gəlib Əliyə beyətin etdi,
Xum çölü ən böyük şərəfə yetdi.



## İMAM RZA (ə.s.)-IN MÖVLUDU

*Allahı yad etmək hər yaxşı əməl sahibinin*
*adəti və hər bir möminin xasiyyətidir.*
*/Həzrət Əli (ə.)/*

Ziyarət edənçün İmam Rzanı,
Yazılan səvabın bilinməz sanı!
Düzdürsə mətləbi, sidqi, imanı,
Naümid qaytarmaz insanı geri–
Odur hər müslimin müqəddəs yeri!

Qərq olub sərvətə, şöhrətə, şana–
Yeddinci qiblədir hər müsəlmana!
Böyük bir fəxrdir mülki-İrana,
Neçə yüzilliklərdən üzü bəri
Odur hər müslimin müqəddəs yeri!

Sənin dərgahına uzanıb əlim,
“İmam Rza”–deyib zikr edər dilim.
Etməz ondan qeyri səyi-təkəllüm,
Dönsə də kürreyi-ərzin məhvəri,
Odur hər müslimin müqəddəs yeri!

Uyuduğun torpaq, muqəddəs məkan,
Gecəsi, gündüzü daim çıraqban.
Sənin müştaqındır biçarə Pünhan,
Eşit həsrətində olan kəsləri,
Odur hər müslimin müqəddəs yeri!

## İMAM RZA (ə.s.)-IN MÖVLUDUNA

*Dünyadan gördüyün bu qədər*
*əziyyətlərə rəğmən, qəlbini*
*dünyaya bağlamağın nadanlıqdır.*
*/Həzrət Əli (ə.)/*

Mədhinə acizdir qələm-kağızım,
Şəni-şövkətinə nə sözlər yazım?
Xanım Nəcmə, ağam Museyi-Kazım
Onu pay verdi din tariximizə,
Şükr ki, Onu Haqq bəxş etdi bizə!

Elə ki, yetişdi o mübarək an,
Müqəddəs bir nura qərq oldu cahan.
O şəhri-Mədinə, o şanlı məkan,
Onun mövluduyla geyindi əlvan.
Bəxtəvərlik gəldi çox talesizə,
Şükr ki, Onu Həqq bəxş etdi bizə!

Təvəllüd zamanı səcdəyə getmiş,
Kəlmeyi-şəhadətini söyləmiş.

Öz imamətini iqrar eyləmiş,
O hüccət gəlmişdir ilahimizə,
Şükr ki, Onu Həqq bəxş etdi bizə!

Yeddi qiblə vardır hər müsəlmana:
Məkkə və Mədinə, Nəcəf, Kərbəla,
Məqabiri-Qüreyş, Sürrə mən Rza,
Yeddinci qibləysə Məşhəddir bizə.
Şükr ki, Onu Həqq bəxş etdi bizə!

Əbülhəsən mütləqdir Həzrət Əli,
Əbülhəsən imam Səccad Əvvəli.
Əbülhəsən Mazi İmam Musa,
Əbülhəsən Sani İmam Rza
Pirayədi hüccət salnaməmizə,
Şükr ki, Onu Həqq bəxş etdi bizə!

Kaş ki, üz qoyaydıq türbətinizə,
Həmd söyləyərək qismətimizə.
Deyəydik türbəti qoyaraq gözə:
"Nə ali xoşbəxtlik nəsb oldu bizə"!
Şükr ki, Onu Həqq bəxş etdi bizə!

Didarına müştaq biçarə Pünhan,
Zəvvarın olmaqçun inlər hər zaman.
Əgər ayrı düşsə bədəndən ruh, can
Həşrdə dönəydi türbətinizə,
Şükr ki, Onu Həqq bəxş etdi bizə!

## SAHİBİ-ZAMANIN XATİRİNƏ

*Əgər dünyanın axırından*
*təkcə bir gün qalmış olsa,*
*Allah-Təala o günü o qədər*
*uzadar ki, mənim övladımdan*
*adı mənim adımdan olan*
*bir nəfəri qaldırar.*
*Mühəmməd Peyğəmbər (s.ə.s.)*

Yığışaq məclisə, Sahib Zamanın xatirinə!
Əcr olsun bizə, Sahib Zamanın xatirinə.
Zavallı bəndələrik biz, onun şəfaəti kaş,
Nur verə gözümüzə Sahib Zamanın xatirinə!
Dayanıb əmrə müntəzir, zühuri-vəqt gələ,
Ola rəhbər bizə, Sahib Zamanın xatirinə!
Kaş zühur eyləyə, axır ki, o gün baş verə kaş,
Belə bir möcüzə, Sahib Zamanın xatirinə!
Xeyrə şər hökm edir, Allah, kaş olmasın zindan,
Məqami-yer Düzə, Sahib Zamanın xatirinə!
Şər-xəta əhli, qatıbsız cahanı bir-birinə,
Lənət olsun sizə, Sahib Zamanın xatirinə!
Cəhd elə xeyr əməli topla əməl dəftərinə,
Şamı qat gündüzə, Sahib Zamanın xatirinə!
Ola qismət o əməl ki, behiştdə badəmizə

Abi-Kövsər süzə, Sahib Zamanın xatirinə!
Lənətə qərq edək o qədri gərək şeytanı ki,
Onu lənət əzə, Sahib Zamanın xatirinə!
Açaq qiraət edək biz, bu müqəddəs Quran
Gərək əl-əl gəzə, Sahib Zamanın xatirinə!
Ömür qüruba yetir Tanrı ziyarət yolunu,
Aça kaş üzümüzə, Sahib Zamanın xatirinə!
Şeri yazdın, Pünhan, kaş ki, zəkavət əhli
Verə qiymət sözə, Sahib Zamanın xatirinə!

***

Edəcəkmi bu yaxında zühur Həzrət, görəsən?
Bitəcəkmi bu qədər intizar, həsrət, görəsən?
Zühura müntəzirdir Ğeybəti-Kübrada ağam,
Nə vaxt verər ulu Tanrım ona rüsxət, görəsən?
İl ili, ay ayı, həm gün günü qovduqca tamam,
Əfv olunmaqmı üçündür belə möhlət, görəsən?
Çox əlamət üzə çıxmış sənələr keçdikcə,
Nə zaman görsənəcək türfə əlamət, görəsən?
Unudur rəhməti hey şöhrətə mail kəslər,
Hələ çox hərlədəcək başları şöhrət, görəsən?
Xeyrə düşmən kəsilib şər, sulayır meydanı,
Soyumazmı bu qədər ondakı nifrət, görəsən?
Qarışıbdır nahaqqa haqq, başa çıxmış batil,
Əzab artır da, azalmır niyə möhnət, görəsən?
Yaxın olduqca zühur anı ürəklər döyünür,
Olacaqmı o gözəl an bizə qismət, görəsən?
Yaxşı, pis hər əməlin haqqı-hesab dəftəri var,
Hələ gecmi qopacaq ruzi-qiyamət, görəsən?

“Fərəc” duasını, Pünhan, oxudun, zikr elədin,
Nəsib olmaqdadımı böylə səadət, görəsən?

## İMAM SAHİB-ƏZ-ZAMAN (s.) AĞANIN MÖVLUDUNA

*Mərdlik – mülayimlik və*
*xoş rəvtarla kamilləşir.*
*/Həzrət Əli (ə.)/*

Mələklər cərgələndi
Həqq nidası yüksəldi.
Bu gün dini-islama
Allahdan töhfə gəldi.

Ürəyindən şəkki sil,
Əyil, səcdəyə əyil!
Bu uca pərvərdigar
Hüccətdən xali deyil.

İmam Həsəni Əskər
İslama verdi gövhər.
Xanım anası Nərgis
Şahzadə Rumi-Qeysər.

Əsdi haqqın yelləri
Saçdı müşk ətirləri.
Açdı bağı-islamın
Əbədi tər gülləri.

Qalxsa fəsadın səsi,
Sızlasa həqq naləsi,
Qalxar Bələdül-Əmin –
Həqqin möhkəm qəl’əsi.

İmaməti daimdir,
Mehdi, Sahib, Qaimdir.
Olsa da gözlərdən qeyb,
Sağ-səlamət, salimdir.

Sahibi-Zülfüqardır,
Haqq işinə səvardır.
O, həqqin fərmanına
Daima intizardır.

Dövləti-mülki-cahan
Zülm ilə dolan zaman,
Ədli-həqqi bərqərar
Eylər imami-Zəman.

Vəqti-zühuri sirrdir,
Ləqəbi Müntəzirdir.
Allahın fərmanına
Daima müntəzirdir.

O bir nurdur, ziyadır,
Sahibi-övliyadır.
Xatəmül-ənbiyaya
Xatəmül-övliyadır.

## İNSAN VƏ DÖVRAN

*Xalq zəlilliyin qorxusundan*
*zəlilliyə tərəf qaçar.*
*Həzrət Əli (ə.)*

Bir gün dolanan dövrə baxıb, ey oxucum, mən,
Dövranın, həm insanın işin seyr eləyərkən,
Gördüm ki, sual eyləyərək biri-birindən,
Hər dəm soruşurlar: “ Nə susursan, nə susursan?”
Gəl, seyr eləyək biz də kənardan, nə susursan?
*İnsan:*
Ey gərdişi kəcrəftar dövran, nə susursan?
Olmuş yalanın doğruya düşman, nə susursan?
*Dövran:*
Hər şey baş-ayaq, tərsi avand sandı çox adəm,
Bu halı görüb seyr edən insan, nə susursan?
*İnsan:*
Sən ki, mütəvazi eləməzsən şəri xeyrə
Etdin düz işi yer ilə yeksan, nə susursan?
*Dövran:*
Səyinlə bina etdiyin ev əyri təməlli,
Məskun olub ol xanəyə şeytan, nə susursan?
*İnsan:*
Həmxanə edincə tikanı gülə, biləydin,
Bülbül sinəsin eylədin əlvan, nə susursan?
*Dövran:*
Neynim ki, salır meylini səhralara aşiq,
Payinə çəkir nəqşini al qan, nə susursan?
*İnsan:*

Gər vurmasaydı daşa külüng kuhdə Fərhad,
Nə ilən bəzərdi şeri qəzəlxan, nə susursan?
*Dövran:*
Bu sözlər ilə mən deyəni təsdiq edirsən,
Tutdunsa da hər kəlməmə nöqsan, nə susursan?
*İnsan:*
Bəzən elə tam sürətilə dövr eləyirsən,
Çaşqın dayanar din ilə iman, nə susursan?
*Dövran*:
Axtarma, suçu məndə! Özün dini, imanı
Verdin tamam öz nəfsinə qurban, nə susursan?
*İnsan:*
Saldın ayağın altına çox haqqı salamı,
Fərq etmədin ki, harda nəmək-nan, nə susursan?
*Dövran:*
Səyinlə zibil guşələri doldu çörəklə,
Xalqın canını çeynədi böhran, nə susursan?
*İnsan:*
Çərxin gahi cənnət yaradır, gah da ki, bəzən
Kaşanələri eylədi viran, nə susursan?
*Dövran:*
Qızdıqca gözün, seçmədikcə ağı qaranı,
Çox vaxt halalı seçməz haramdan, nə susursan?
*İnsan:*
Şeytana mələk donunu geyindirdi gərdişin
Sapdırdı mənim əqlimi yoldan, nə susursan?
*Dövran:*
Kamil imanın əqli-səri sapmağa qoymaz,
Zalım ölümünə versə də fərman, nə susursan?

*İnsan:*
Bir anda gülüstanları soldurdu gərdişin,
Mən də dolanan xanənə mehman, nə susursan?
*Dövran*:
Mehmannəvazlıq eylədim sən Adəm oğluna,
Tutdun, amma hər guşəmə divan, nə susursan?
*İnsan:*
Bəzən sənin hər yıxdığını abad edənçün
Oldun əbədi qorxulu zindan, nə susursan?
*Dövran:*
Zindanları insanlar edib zülm üçün icad,
Yıxdım neçə zindanı çox zaman, nə susursan?
*İnsan:* (Söz tapmayaraq, başını aşağı salır)
*Dövran:*
Min il qabağın Ay, Günü dəyişmədi hüsnün,
Bir anda girirsən dona-dondan, nə susursan?
*İnsan:*
Hər guşəni rəng-rəng boyayıb laləzar etdin,
Sən açmadınmı hər şeyə meydan, nə susursan?
Gəl, et köməyin, dövran ilə üz-üzə qaldım,
Ey daşa dönən, buz kimi vicdan, nə susursan?
*Dövran:*
Vicdandan umma, gəl, kömək, ey Adəm övladı!
Yatmışsa, çətin dursun uyqudan, nə susursan?
*Müəllif*:
Eylə zühur, ey dövrün ədalətli hakimi,
Hökmünlə gətir aləmə səhman, nə susursan?
Ya Rəbb, kömək ol, suçlarıma əfvi-qələm çək,
Həşr anı xitab eyləmə, Pünhan, nə susursan?

## ƏLÇATMAZLIQ MEYARI

*Düşünməyə bir şey olmayan*
*hər bir sükut qəflətdir.*
*/Həzrət Əli (ə.)/*

Bir gün düşünürkən əlimdə qələm,
Gəldi xəyalıma qərib bir aləm.
Gəlib göz önünə nurani bir zat
Dedi: - “Gəl, bunları bir kənara at.
Nə çoxdur könüldən, ürəkdən yazan?!
Nə çoxdur bağçadan, çiçəkdən yazan?!
Nə yaşın o yaşdır, nə vaxt o vaxtdır,
Fanilik buz üstə qurulan taxtdır.
Sürüşər sən ona çıxdığın anda,
Uçurumlar olar məkanın sonda.
İnanma bu qədər fani aləmə!
Tərifinə onun vaxt sərf eyləmə!
Axirət gününü düşünüb bir az,
İrfanicə düşün, irfanicə yaz.
Bir kəlmə irfani söz desən əgər,
Baş əyər önündə böyük bir əsər.
Təkdir yerin, göyün şahı, padşahı,
Odur mənim, sənin, onun pənahı.
Bir kəlmə həsr etsən O böyük şaha,

Bil ki, töhfə olar səndən sabaha.
Ürəkli ol, mədh et sən Peyğəmbəri,
Mədh eylə Əlini, vəsf et Heydəri.
Tanrının Heydəri Əlidir, Əli!
Rəsulun yavəri Əlidir, Əli!
O Şəmsin qəməri Əlidir, Əli!
Saqiyi-Kövsəri Əlidir, Əli!
Özündən sonra ğir söz qoymaq üçün
Dediyim barədə dərindən düşün!"
Sanki silkələdi o sözlər məni.
Açdı gözlərimi örtən pərdəni.
Keçdi xəyalımdan Allahın Şiri,
Onun şücaəti, onun hünəri!
Vəsfinə böyük bir cəsarət istər.
Ən iti bir qələm kəsərdən düşər
O ömrün tək bircə anın yazarsa.
Ancaq Allahımdan izin olarsa,
İstəyim salaraq ruhi təşvişə
Səy etdi belə bir müqəddəs işə.
Ürəyim verirkən belə bir rəyi
Əqlim dərk edirdi bu çətinliyi...
...Əzəldən beləydim hər vaxt həmişə
"Ya Əli!" deyərək başlardım işə.
Nə söz yaraşdırım Onun şəninə?
Cürətim çatmırdı Əli mədhinə.
Hünərin məddahlar mədh eyləmişlər.
Vəssafı olmaqçun bəhsə girmişlər.
Şairlər baş əyib əzəmətinə,
Dastanlar qoşmuşlar şücaətinə.

Bəs mən nə edəydim, nə yaradaydım?
Bu cür hünərvərə nələr yazaydım?
...Düşünüb gecədən səhərə kimi,
Köməyə çağırdım kağız-qələmi.
Əzəl sirdaşlarım qələmlə kağız,
Mənim qərarıma qalmışdı aciz.
Quruyub qalmışdı əlimdə qələm,
Dəyərdə deyildi gözümdə aləm.
Qəlbimə axıdıb göz yaşlarımı,
Köməyə çağırdım sirdaşlarımı.
Qələm kağız üstə endirərək baş,
Aciz-aciz gözdən axıdaraq yaş,
Gəzərək lövh üzrə hey yavaş-yavaş
Dedi: - "Soruşma, gəl, nədir bu təlaş.
Nədir bu göz yaşı, demə, bu nə ah.
Onu vəsf eyləmək çətindir, vallah!"
Qələm ağ kağızla durub üz-üzə,
Böyük ehtiramla başladı sözə.
Dinləyən kəsləri eyləyərək şad,
Belə bir yazını eylədi inşad.
Yazdı: "Bismillahirrəhmanirrəhim!
İsmin pənahımdır, sən, ey münrəhim!
Sənə tapınıram nə qədər varam!
Nə qədər həyat var, Əlidir mövlam!
Vararaq fikrimin hər kəlməsinə,
Baxıb söz bağının dörd guşəsinə,
Boylanıb ilhamın söz gülşəninə,
Əli şövkətinə, Əli şəninə,
Əli qüdrətinə, Əli məninə,

Əli fitrətinə söz gəzən zaman,
“Qəhrəmanlıq” sözü xar olar haman.
Bu elə bir kəs ki, doğulan zaman
Behişt xanımları enmiş səmadan.
Kəbə divarları yarılıb haman,
Ana daxil olub həmin yarıqdan.
Özün gizlətməkçün yad kimsələrdən,
Kəbənin içinə girmişdir həmən.
Məscidül-Həramda doğuldu körpə,
Ona qucaq açdı müqəddəs Kəbə.
Adını adından edərək müştəqq.
Onu “Əli” deyə adlandırıb Həqq.
Səmalardan bir lövh olmuş ki, nazil,
Bu lövhdə hər mətləb olurdu hasil.
Həmin yaşıl rəngli lövhi-zəbərcəd,
Üstündə nəzmlə yazılmış dörd xətt:
“Sizə məxsus etdim bu pak fərzəndi,
Məmnunluğumun yox hüdudu, həddi!
Adını adımdan müştəqq eylədim;
Körpənin adını Əli söylədim.”
Səmalardan Məryəm, Sara, Asiyə
Endi cərgə-cərgə mələklər ilə.
Xanımdar, mələklər hərə bir yandan,
Anayla körpəyə oldular həyan.
İlahi əmrilə körpə açıb dil:
“Qül caəl həqqü və zəhəqəl-batil”
Ayəsin zikr etdi kəlməbəkəlmə.
Varlığı böyük fəxr oldu aləmə.
Əli Yəsubiddin, Kitabül-mübin,

İmamül-müttəqin, həm ismətül-din.
Saqiyi-Kövsərdir, Sahibil-liva,
Validül-əimmə, ürvətül-vüsqa.
Dünyaya üç dəfə talaq verirkən
Cənab üz döndərmiş fani aləmdən.
Dinləyən kəsləri edərək agah,
O, öz qərarına verirdi izah:
-Mən iqrar eyləyib darü-bəqaya,
Heç vaxt bağlanmadım mülki-fənaya.
Dünyaya üç dəfə talaq verirəm,
Onun vəfasına mən güvənmirəm.
İlahi qüvvəydi Onun hünəri,
Belə söyləyirdi Allahın Şiri:
-Xeybər qalasını qopardığım an,
Mənə güc verirdi böyük Yaradan.
Düşmənə O hücum eyləyən zaman,
Sanki bir ox kimi çıxır yayından.
Sıyrılır Zülfüqar o an qınından
İçib sirab olur kafir qanından.
"Əsədullah" idi Onun bir adı,
Ondan vəhm edirdi kafir niжadı.
O haray salanda "Allahu Əkbər"
Küffar leşkərləri tir-tir əsərlər.
Zəbun edən zaman dəri-Xeybəri,
Hey alqışlayaraq o an Heydəri,
Vəssafi-mələkut əhsən söylədi.
Onun hünərini nəzmə çevirdi,
Əli cəlalına nohasimanda,
Fələklər, mələklər hamı bir anda

Təkbirlər zikr edib şərqi söylədi.
Göylər şərqi dedi, yerlər dinlədi:
“La fəta illa Əli, la seyfi illa Zülfüqar”
“La fəta illa Əli, la seyfi illa Zülfüqar”
Aləm dinlədikcə bu şərqiləri,
Riqqət sarsıdırdı yeri, göyləri.
Dilimi lal etmiş vəcdim, riqqətim,
Uçunurdum yoxdu tabım, taqətim...
...Qəfil xışıltıdan diksindim birdən,
Biixtiyar bir ah qopdu qəlbimdən.
Təsəvvür edirkən bu təntənəni,
Sanki seyr edirdim həmin səhnəni.
Gəldikcə xəyala o möhtəşəm an,
Vəcdimdən canımı almış həyəcan.
Tamam əsim-əsim əsirdi tənim,
Ruhdan ayrılırdı sanki bədənim.
Bu coşqu önündə, Allahım, xaram,
Söz icad etməkdə çarü-naçaram!
Belə ucalığı dərk edirəmsə,
Necə bir söz tapım belə bir şəxsə?
Şahidsən, ya Rəbbim, necə acizəm,
Sözüm kəsərsizdir, özüm gücsüzəm!!!
Alilik önündə əyilmiş başım,
Bu müşkül önündə çatılmış qaşım.
Elə bir zirvədir Əli zirvəsi,
Ona yetişərmi Pünhanın səsi?
Sən də, gəl, qınama özünü, qələm,
Nədir çəkdiyin qəm, nədir bu ələm?
Bu gün ürəyində qalsa da arzun,

Bu sona yetməyən yarımçıq yazın,
Verməsə də sənə bir üzaqlığı,
Sevin, dərk edirsən bu ucalığı!
Əlçatmaz olsa da bu uca zirvə,
Ona baş əyirəm mən sevə-sevə!
Adi zirvə deyil, dərk etsən əgər,
Ona qibtə edir uca zirvələr!
Yarımçıq qalmasın deyə bu yazım,
Düşündüm, daşındım axı nə yazım?
Açaraq əlimi uca göylərə,
Mən əfv diləyirəm lap milyon kərə:
-Allahım, əfv eylə, gəl, bu bəndəni,
Əli xatirinə bağışla məni.
Pünhan dərdlərimə edərək əlac,
Məni namərdlərə eyləmə möhtac.
Qiyamət anı, kaş, dərruzi-cəza,
Mənə əməllərim savablar yaza.
Bilməm günah çoxdur, yainki savab?
Buna əməllərim verəcək cavab.
Ya Rəbbim, rəhm edib könül ahıma,
Əfvi-qələm çəkib hər günahıma,
Saqiyi-Kövsərə bağışla məni.
O Ali-Heydərə bağışla məni.
Kaş Allah eşidə bu son arzumu,
Deyib bitirdim bu zəif yazımı.

# MÜNDƏRİCAT


"Əli aşiqlərinə hədiyyə" ........ 3
Rəməzan xatirinə – Əli aşiqlərinə hədiyyə ........ 5
Yaradanın və Mühəmməd peyğəmbərin (s.) şəninə........ 7
"Fatihə" surəsinin nəzmdə tərcüməsi........ 9
Bax ........ 13
Peyğəmbər (s.)-ın mövluduna........ 16
Həzrət Əli (ə.s.)-ın şəninə ........ 18
Həzrət Əli (ə.s.)-ın şəninə ........ 19
Fatimeyi-Zəhra (s.ə.)-ın mövluduna ........ 21
Fatimeyi-Zəhra xanım həzrətlərinin vəfatına........ 22
Zəhrani tanı ........ 23
Hüseynə görə........ 26
Rəməzan xatirinə........ 27
Gəldi Rəməzan........ 29
Rəməzan........ 30
Rəməzanda........ 31
Qurban bayramı........ 33
İsmayil qurbanı ........ 34
Qədir-Xum vaqiəsi........ 36
İmam Rza (ə.s.)-ın mövludu ........ 38
İmam Rza (ə.s.)-ın mövluduna........ 39
Sahibi-zamanın xatirinə ........ 41
İmam Sahib-əz-zaman (s.) ağanın mövluduna........ 43
İnsan və dövran........ 45
Əlçatmazlıq meyarı........ 48

**MAŞTAĞA ZİYALI QADINLAR MƏCLİSİ**

**PÜNHAN SƏDA**

# ƏLİ AŞİQLƏRİNƏ HƏDİYYƏ

Naşir: Ceyhun Əliyev
Bəddi redaktor: Afər Fəttahova
Texniki redaktorlar: Ülvi Arif, Asim Səfərov
Dizayner: İradə Əhmədova
Operator: Tərlan Quliyeva, Məlahət Quliyeva

---

Yığılmağa verilmişdir: 27.08.2013
Çapa imzalanmışdır: 25.09.2013
Sifariş № 578: Tiraj 300, ş.ç.v. 3,5
«MBM» nəşriyyatının mətbəəsində
çap olunmuşdur